# “Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlər arasında insan alverinə, insan orqanları və toxumalarının qanunsuz ticarətinə qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş”in icrasının təmin edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

1. Azərbaycan Respublikasının “Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlər arasında insan alverinə, insan orqanları və toxumalarının qanunsuz ticarətinə qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş”in 2-ci maddəsinin 3-cü bəndinə uyğun olaraq, Azərbaycan Respublikası tərəfindən səlahiyyətli orqan kimi Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi təyin edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən sazişin 2-ci maddəsinin 3-cü bəndinə uyğun olaraq, səlahiyyətli orqan kimi Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin təyin edilməsi barədə Müstəqil Dövlətlər Birliyinə müvafiq bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 iyun 2006-cı il*

Azərbaycan.- 2006.- 14 iyun.- S. 1.